**ƏDƏBİYYATŞÜNASLIQ**

*https://doi.org/10.30546/114578.2025.11.5102*

# SEYİD ƏZİM ŞİRVANİ YARADICILIĞI "ƏKİNÇİ" QƏZETİ SƏHİFƏLƏRİNDƏ

**Zəfər Kərimov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*https://ORCID.org/0009-0007-8915-483X*
*karimov.zafer@gmail.com*

**Xülasə**

XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Seyid Əzim Şirvani (1835-1888) şeir və qəzəllərində o dövrün ictimai-siyasi hadisələrinə geniş yer ayırmış, ölkədə təhsilin və maarifçiliyin inkişafı ilə bağlı şeirlərini "Əkinçi" və "Ziya" (Ziyayi-Qafqaziyyə)" qəzetlərində dərc etdirmişdi.

Seyid Əzim "Əkinçi" qəzetində dərc olunan yazıları diqqətlə izləmiş və qəzetin ruhuna uyğun, ictimai-milli dəyərləri əks etdirən yazılar dərc etdirməyə çalışmışdır. Görkəmli şair tezliklə həm "Əkinçi"nin, həm də ondan sonra işıq üzü görən "Ziya" (Ziyayi-Qafqaziyyə) və "Kəşkül"ün aparıcı yazarlarından biri olmuşdur. Seyid Əzim Şirvani təkcə maarifçilik ideyalarını təbliğ edən şeirlər yazıb çap etməklə kifayətlənməmiş, eləcə də Səid Ünsizadənin açdığı "Məclis" məktəbində pedaqoji fəaliyyətini genişləndirərək dərslik tərtibi işi ilə də məşğul olmuşdur

**Açar sözlər:** Seyid Əzim Şirvani, "Əkinçi", şair, şeir və qəzəllər, pedaqoji fəaliyyət.

# SEYID AZIM SHIRVANI'S WORKS ON THE PAGES OF THE EKINCHI NEWSPAPER

**Zafar Kerimov**
*Institute of History and Ethnology named after A.A.Bakikhanov of the National Academyof Sciences of Azerbaijan*

**Abstract**

Seyid Azim Shirvani (1835-1888), one of the prominent representatives of the Azerbaijani literature of the 19th century, paid great attention to the socio-political events of that time in his poems and ghazals, and published poems about the development of education and enlightenment in the country in the Ekinchi and Ziya (Ziyayi-Kavkaziya) newspapers.

Seyid Azim closely followed the publicationsin the Ekinchi newspaper and tried to publish articles that reflected social and national values and corresponded to the spirit of the newspaper. The outstanding poet was one of the leading authors of Ekinchi, as well as Ziya and Kashkul, which were published after it. Seyid Azim Shirvani was not only content with writing and publishing poems promoting the ideas of enlightenment, but also launched pedagogical activities in the "Majlis" school opened by Seyid Unsizade and was engaged in compiling textbooks.

**Key words:** Seyid AzimShirvani, "Ekinchi", poet, poems and ghazals, teaching activities.

## ТВОРЧЕСТВО СЕЙИДА АЗИМА ШИРВАНИ НА СТРАНИЦАХ ГАЗЕТЫ «ЭКИНЧИ»

**Зафар Керимов**
*Институт Истории и Этнологии им. А.А.Бакиханова Национальной Академии наук Азербайджана*

**Резюме**

Сейид Азим Ширвани (1835–1888), один из видных представителей азербайджанской литературы XIX века, в своих стихах и газелях уделял большое внимание общественно-политическим событиям того времени, а в газетах «Экинчи» и «Зия» (Зияйи-Кавказия) публиковал стихи о развитии образования и просвещения в стране.

Сейид Азим внимательно следил за публикациями в газете «Экинчи» и старался публиковать статьи, отражающие общественные и национальные ценности и соответствующие духу газеты. Выдающийся поэт был одним из ведущих авторов «Экинчи», а также изданных в «Зия» и «Кешкюл». Сейид Азим Ширвани не только довольствовался написанием и публикацией стихов, пропагандирующих идеи просветительства, но и развернул педагогическую деятельность в школе «Меджлис», открытой Сейидом Унсизаде, и занимался составлением учебников.

**Ключевые слова:** Сейид Азим Ширвани, «Экинчи», поэт, стихи и газели, педагогическая деятельность.

### Giriş/Introduction

S.Ə.Şirvaninin "Əkinçi", "Ziya (Ziyayi-Qafqaziyyə) və "Kəşkül" kimi mətbu orqanlarında fəaliyyəti ilə bağlı Azərbaycan tarixşünaslığında bir çox tədqiqatçı-alimlər – Ə.Mirəhmədov, N.Zeynalov, X.Məmmədov, A.Bayramoğlu və b. araşdırmalar aparmış, qiymətli əsərlər yazıb çap etdirmişlər. Məqalənin yazılmasında məqsəd S.Ə.Şirvaninin "Əkinçi", "Ziya (Ziyayi-Qafqaziyyə) və "Kəşkül"də dərc olunmuş şeir və

qəzəllərində dövrün ictimai-siyasi hadisələri, maarifçi baxışlarına yeni münasibətləri araşdırmaqdır.

XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Seyid Əzim Şirvaninin (1835-1888) şeir və qəzəllərində o dövrün ictimai-siyasi hadisələrinə geniş yer ayırmış, ölkədə təhsilin və maarifçiliyin inkişafı ilə bağlı şeirlərini "Əkinçi" və"Ziya" (Ziyayi-Qafqaziyyə) qəzetlərində dərc etdirmişdi.

1856-1869-cu illərdə Seyid Əzim Nəcəf və Bağdadda ali ruhani təhsili alaraq ərəb və fars dillərini mükəmməl öyrənmiş, islam dini və mədəniyyətinin sirlərinə dərindən yiyələnmişdir. 1869-cu ildə Şamaxıya qayıtdıqdan sonra yeni üsul üzrə məktəb açıb və ömrünün sonuna qədər burada müəllimlik etmişdir. Onun açdığı məktəbdə Mirzə Ələkbər Sabir və Sultan Məcid Qənizadə kimi görkəmli şəxslər oxuyub, təhsil almış, yeni biliklərə yiyələnmişdilər.

**"Əkinçi"nin nəşri.** 1875-ci il iyulun 22-də Bakıda Həsən bəy Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzeti xalqımızın mədəni həyatında böyük və unudulmaz bir hadisə oldu. Azərbaycan xalqının çoxdan arzuladığı azad söz, xalqın istəyi həyata keçmiş, insanların bir çox düşüncələri mətbuat vasitəsi ilə xalqa çatdırılması imkanı yaranmışdı. Qəzetin nəşrində Həsən bəy Zərdabiyə Bakı qubernatoru D.S.Staroselskinin (1832-1884) böyük dəstəyi və köməyi oldu. Staroselski digər çar inzibatçılardan fərqli olaraq demokratik ruhlu, zəhmətkeş adamlara ürəkdən rəğbət bəsləyən bir insan idi. O, Azərbaycan xalqının tarixinə, adət-ənənələrinə, ana dilinə çox maraq göstərirdi. Onun təşəbbüsü ilə Bakı səhnəsində M.F.Axundzadənin bir sıra pyeslərinin ilk tamaşaları təşkil edilmiş, Şamaxıda üç sinifli məktəb açılmışdı.

1875-1877-ci illərdə "Əkinçi" qəzetinin cəmi 56 sayı çıxmasına baxmayaraq, qəzet geniş xalq kütlələrinin böyük marağına səbəb olmuş və S.Ə.Şirvani, N.Vəzirov, A.Adıgözəl, Moskvada Petrovski Kənd Təsərrüfatı Akademiyasında ali təhsil almış Əsgər ağa Gorani, Hacı Məmədsadıq (Əbülhəsən Həvail), Mirzə Həsən Əlqədari, Ələkbər Heydəri, Məhbus (Əli Mədəd) Dərbəndi və b. ziyalılarla fəal əməkdaşlıq əlaqələri yaratmışdı. M.F.Axundov da "Əkinçi"nin səhifələrində çıxış edirdi. Cənubi Qafqaz və Dağıstan şəhərlərində, İranda qəzetin öz müxbirləri var idi. H.Zərdabi o zaman Peterburq, Moskva, Tiflis, İrəvan və Gəncədə, habelə digər yerlərdə işləyən azərbaycanlı, gürcü, rus və erməni dostları ilə geniş əlaqələr saxlayırdı. Qəzetin nəşrinin bütün müsəlman Şərqi üçün böyük əhəmiyyəti var idi. "Əkinçi" beynəlxalq aləmdə əks-səda doğurmuş və bütün müsəlman Şərqində Avropa üsulunda nəşr olunmuş ilk mətbu orqan kimi tanınmışdı.

"Əkinçi" mütərəqqi maarfçı, demokratik ideyaları təbliğ edir, mövhumat və cəhalətə qarşı mübarizə aparır, Azərbaycan gerçəkliyinin bir çox zəruri problemlərini işıqlandırırdı. Qəzet köhnə sosial-iqtisadi qaydaları aradan qaldırmağa, azadlığa çıxmaq üçün xalq kütlələrinin maariflənməsi ideyasını ardıcıl şəkildə müdafiə və təbliğ edirdi. "Əkinçi" qəzeti Şimali Azərbaycanda qadın təhsilinin zəruriliyini müdafiə edən ilk milli qəzet olmaqla yanaşı, ana dilinin saflığı uğrunda yorulmadan mübarizə aparırdı. Əkinçi

Mirzə Fətəli Axundzadə ənənələrini inkişaf etdirərək, ədəbiyyatın xalq həyatının yaxşılaşdırılması uğrunda, ədəbiyyatda formalist cərəyanlara və diaqmistik ədəbiyyata qarşı da genişlənib, inkişaf etməsi uğrunda qətiyyətlə çıxış edirdi. H.Zərdabi və onun həmkarları "Əkinçi" qəzetində Cənubi Qafqaz xalqları arasında çoxəsrlik əlaqələrin möhkəmləndirilməsi ideyalarının qızğın təbliğatçısı kimi çıxış edir və bu xalqların daha da yaxınlaşması uğrunda mübarizə aparırdı.

"Əkinçi" qəzetinin nəşri təkcə Azərbaycan xalqı üçün deyil, bütövlükdə türk dünyası üçün çox böyük mədəni, ictimai-siyasi bir hadisə idi. Qəzet Azərbaycanda feodal quruluşunun eybəcərliklərinə, onun doğurduğu bütün iqtisadi, ictimai və mədəni tənəzzülə qarşı geniş mübarizə cəbhəsi açdı. "Əkinçi" qəzetinin ətrafında o dövrün bir çox ziyalıları cəmləşmişdi. Buraya onun redaktoru H.Zərdabi ilə yanaşı, "Əkinçi"nin fəal əməkdaşları olmuş M.F.Axundzadə, N.Vəzirov, Əhsənül-Qəvaid, Məhəmmədtağı Əlizadə Şirvani və b. müəlliflər daxil idilər.

Bununla belə, "Əkinçi" qəzetinin əsas istiqamətverici və təşkilatçısı H.Zərdabinin özü idi. O, qəzetin baş məqalələrində əsasən öz fikirlərini şərh edirdi. Bu məqalələrdə isə kənd təsərrüfatı məsələləri, maarifçilik, təbiət elmləri, azadlıq fikirləri, ana dilində təhsil və dərs kitabları yaradılması, xalqlar arasında dostluq, hər bir işdə yeni üsullar və maşın tətbiq olunması məsələləri təbliğ edilir, köhnə lüğətlər və tərbiyə üsulları, dini xurafat, zorakılıq hökumət məmurlarının pozğunluğu, özbaşınalığı tənqid olunurdu.

Zərdabi müasir həyatın inkişafı ilə əlaqədar olaraq bir sıra ictimai və siyasi məsələlərə də toxunurdu [Mirəhmədov, 1979:128-129]. Qeyd etmək lazımdır ki, H.Zərdabi və onun nəşr etdiyi "Əkinçi" qəzeti Azərbaycanda ictimai-mədəni fikrin inkişafında təkcə bu addımı ilə deyil, bütövlükdə yeni-yeni mütərəqqi addımlar atmış, xalqı inkişafa və tərəqqiyə aparan işıqlı bir yolun açılmasında əhəmiyyətli rol oynamışdır. Onun qələm və əqidə dostları olan vətənpərvər ziyalılarımız *"... öhdələrinə düşən tarixi vəzifəni həyata keçirmək üçün öz müəllimlərinin – H.Zərdabinin səsinə səs verərək mümkün olan bütün vasitə və imkanlardan istifadə edərək məktəb, kitabxana-qiraətxana açır, müsamirələr təşkil edir. "Əkinçi" səhifələrində dərs proqramı və dərsliklərin yenidən tərtibi məsələlərini qaldıraraq, orada dünyəvi elmlərin əsas yer tutmasını vacib sayırdılar"* [Bayramoğlu, 1997:34]."Əkinçi" qəzeti toxunduğu məsələlərin əhatə dairəsinin genişliyi baxımından böyük nüfuz qazanmışdı. "Kavkaz" qəzeti xəbər verirdi ki, artıq "Əkinçi" London və Nyu-York şəhərlərində də tanınmışdır. Onu da nəzərə almaq lazımdır ki, "Əkinçi" çox ağır şəraitdə və hər cür çətinliklərə dözərək çıxırdı.

H.Zərdabi təəssüf hissi ilə yazırdı: "*Əkinçi" qəzeti bina olunanacan bizim heç bir qəzetimiz ya jurnalistimiz olmayıb"*.

Qəzet nəşr etdirmək, göründüyü kimi, o zaman üçün misli-bərabəri olmayan, təsəvvürə sığmayan müşkül bir iş idi. Məhz bu səbəbdən də dövrün maarifpərvər ziyalıları, o cümlədən Seyid Əzim, Məmnun Əlqədiri və b. H.Zərdabinin çar hökumətindən qəzet çıxarmaq üçün icazə almasını fövqaladə bir hadisə kimi qiymətləndirmişdilər. Görkəmli alim AMEA-nın müxbir üzvü Əziz Mirəhmədovun haqlı

olaraq yazdığı kimi, "*Əkinçi" qəzeti çox tez bağladılsa da, Rusiya müsəlmanlarının mədəniyyət salnaməsində böyük bir ad qoydu. Onun milli mətbuat tarixində açdığı yol, yaratdığı ənənələr çox uğurlu, uzunömürlü oldu. Azərbaycan ədəbiyyatı və mətbuatının bütün qabaqcıl xadimləri hətta "Əkinçi" bağlanandan 20-30 il sonra da onun aktual, əhəmiyyətini itirməyən demokratik–maarifçi ideyalarına yiyələnməyi və həmin ideyaları yaşadıb inkişaf etdirməyi özlərinə borc bilirdilər. "Əkinçi" onlar üçün xəlqiliyin, əməkçilərə təmənnasız və sədaqətli xidmətin, ideyalılığın, ictimai və milli zülmə qarşı mübarizənin doğma mədəniyyət və ana dilinin tərəqqisi yolunda çalışmağın, dünya elminin nailiyyətlərini yaymağın, prinsipial, doğrusu, demokratik mətbuatı inkişaf etdirməyin ilhamverici, gözəl bir nümunəsi olmuşdur*" [Mirəhmədov, 1979:15].

**Yeni ruhlu şair.** Azərbaycan milli mətbuatının yaranması və inkişafında rolu olan vətəndaş ziyalılarımızdan biri də yeni rulu şair Seyid Əzim Şirvani idi. O, mətbuata böyük dəyər vermiş, onun xaiqın həyatı və məişətində möhkəm kök salmasında böyük səylər göstərmişdir.

O, "Əkinçi" qəzetinə göndərdiyi təbrik məktubunda Həsən bəy Zərdabinin xalqa bu xidmətini − qəzet çıxarması ilə islam əhlini "xaki məzəllətdən" qaldırdığına, "Əkinçi"ni öz gəlişi ilə millətimizin ruhuna "nəsimi-sübh" − səhər mehi kimi təzə və təravətli bir nəfəs verdiyinə görə alqışlayırdı.

Seyid Əzim Şirvani "Əkinçi" qəzetində dərc olunan yazıları diqqətlə izləmiş və qəzetin ruhuna uyğun, ictimai-milli dəyərləri əks etdirən yazılar dərc etdirməyə çalışmışdır. Görkəmli şair tezliklə həm "Əkinçi"nin, həm də ondan sonra işıq üzü görən "Ziya" (Ziyayi-Qafqaziyyə) və "Kəşkül"ün aparıcı yazarlarından biri olmuşdur.

O, "Qəzet nədir" adlı şeirində yazırdı:

*Qəzetin çoxdu xəlqə mənfəəti,*
*Nə bilir kim ki, yoxdu mərifəti.*
*Nə deyim, vəhyi-asimandır ol,*
*Leyk ərbabi-hal canıdır ol.*
*...Nəqəzet, mayeyi-səadətdir,*
*Nəqəzet, eyni-elmi-hikmə*tdir [Şirvani, 1877:№18].

Seyid Əzim Şirvani sonrakı dövrlərdə bədii yaradıcılığı ilə yanaşı, elmi-pedaqoji fəaliyyətlə də məşğul olmuş, bir sıra çətiliklərə baxmayaraq məqsəd və məramını sonadək davam etdirmişdir. O, "Ziya" (Ziyayi-Qafqaziyyə) (1879-1884) qəzetinin nəşrini də böyük coşğu ilə qarşılaşmış və onun fəaliyyətini dəstəkləyərək geniş təbliğ etmişdir. Seyid Əzim "Ziya" qəzetində dərc etdirdiyi şeirində cəmiyyət qarşısında qəzetçi və jurnalistlərin fəaliyyətini yüksək dəyərləndirərək belə ifadə etmişdi:

*Qəzet bir hüdhüdi-ziba, qəzetxanlar Süleymandır,*
*Yetib Bilqeysi-mənayə gərək onlar Səbalənsin.*
*Qəzetdir peyki-ruhani ki, söylər sirri-pünhani,*
*Nə lazım peyki-həq künci-xəfadə ixtifalənsin.*

*Bu kari-xayrə kim bir paktiynət eyləyib iqdam,*
*Gərək millət qıla himmət ki, ta mətləb ədalənsin* [Şirvani, 1879:№ 6].

Seyid Əzim Şirvani bu şeirində mətbuat yazarlarının ideyaları ilə həmfikir olduğunu bildirməklə yanaşı, bu ideyaların həyata keçməsində öz həmkarlarını köməyə çağırırdı. Mətbu orqanlarda milli-mənəvi dəyərlərin güclənməsi və elmi-mədəni tərəqqinin təbliği yolunda yorulmadan çalışan görkəmli şair, bir-birindən məzmunlu və dəyərli əsərlər yazmışdır. Qeyd olunmalıdır ki, milli mətbuatın yaranması və inkişafı Seyid Əzimin də dünyagörüşünə mütərəqqi təsir göstərmiş və ciddi dəyişikliklər yaratmışdır. Bu məsələilə bağlı tədqiqatçı alim prof. Alxan Bayramoğlunun fikirləri maraq doğurur: *"... 1990-cı illərin ortalarınadək elmi ədəbiyyatda bu barədə mövcud olan fikirdən belə çıxır ki, guya "Əkinçi" qəzeti nəşrə başlayan kimi Seyid Əzim də maarifçi şeirlər yazmışdır. Bu cür mövqe elmi və tarixi həqiqətə uyğun olmadığı kimi, S.Ə.Şirvaninin yeni ədəbi-ictimai prinsipləri mənimsəməsi prosesini və bu yolda keçirdiyi çətin və mürəkkəb yaradıcılıq təkamülünü, habelə həmin işdə "Əkinçi" qəzetinin oynadığı rolu arxa plana keçirmiş, bir növ, unutmuş olurdu.*

*Araşdırmalar göstərir ki, S.Ə.Şirvani "Əkinçi"nin irəli sürdüyü yeni məzmunlu ədəbi-ictimai prinsiplərin mahiyyətini dərhal və olduğu kimi dərk edə bilməmişdir. Bu mərhələni keçib yeni yaradıcılıq yoluna qədəm qoymaq üçün şairə müəyyən vaxt və düşünüb-daşınmaq, götür-qoy etmək lazım gəlmişdir.*

*Belə ki, 1875-ci il iyulun 22-də ilk nömrəsi çıxan "Əkinçi"yə Seyid Əzimin yazdığı mənzum təbrik məktubu qəzetin həmin ildə çıxan 6-cı sayında dərc edilib. Bundan sonra isə 1876-cı ilin ortalarınadək qəzetdə Seyid Əzimin heç bir yazısına rast gəlinmir. Şairin bu susqunluq buzunun sınmasında isə yeni ictimai düşüncə və ədəbi fikir uğrunda H.Zərdabi ilə əlbir mübarizə aparan müəlliflərdən birinin - Əhsənül-Qəvaidin (Hacı Məmmədsadığın) qəzetdə dərc olunan məqaləsi əhəmiyyətli rol oynamışdır"* [Bayramoğlu, 2015:№153].

"Əkinçi" qəzetinin əsas yazarlarından biri olan Əhsənül-Qəvaidin qəsidəçilik və həcvçilikdə, şeirdə şərabın və gözəlin obrazlı tərifinə qarşı bu kəskin çıxışı bir çox başqaları kimi, Seyid Əzimi və həmkarlarını narazı salmışdı. Şair qələm yoldaşları ilə birgə yazıb "Şüərayi-ərbəeyi-Şirvan" (dörd nəfər Şirvan şairi) imzası ilə "Əkinçi"yə göndərdiyi məktub-məqalədə Əhsənül-Qəvaidi klassik ədəbiyyata qarşı qərəzli fikirlər yazmaqda günahlandırır, bu cür şairləri poeziyaya yamaq yad bir ünsürlər hesab edirdilər. Onlar Əhsənül-Qəvaidi təhdid edərək ona şairlərin dünya durduqca onu tarixdə biabır edəcək həcv ağzını açmamağı məsləhət görürdülər. Əhsənül-Qəvaid isə yeni məqaləsində bu məsələyə qayıdaraq göstərirdi ki, onun məqsədi şairlərlə düşmənçilik etməmək, milli inkişafa əngəl olan şəxsləri üzə çıxarıb onları aradan qaldırmaqdan ibarətdir.

Əhsənül-Qəvaidin Seyid Əzimə müraciətlə "cənab ağa" deyə yazdığı həmin məqalədən az sonra − 1876-cı ilin iyun ayında S.Ə.Şirvani "Cəfər, ey qönçeyi-gülüstanım" misrası ilə başlanan maarifçilik ruhlu ilk şeirini yazıb "Əkinçi" qəzetində

çap etdirdi. O vaxtdan etibarən "Əkinçi", sonra isə "Ziya" və "Kəşkül" səhifələrində Seyid Əzimin maarifçilik ruhlu şeirləri tez-tez nəşr olunmağa başladı.

"Əkinçi"nin nəşrindən 1876-cı ilin iyununadək keçən müddət Seyid Əzimin yeni ədəbi prinsipləri mənimsəməsi dövrü kimi hesab olunmalıdır. Qeyd olunmalıdır ki, o təkcə maarifçilik ideyalarını təbliğ edən şeirlər yazıb çap etməklə kifayətlənməmiş, eləcə də Səid Ünsizadənin açdığı "Məclis" məktəbində pedaqoji fəaliyyətini genişləndirərək dərslik tərtibi işi ilə də məşğul olmuşdur. M.F.Axundovun tövsiyəsi əsasında "Əkinçi" qəzetində məktəb, dərslik və onlara uyğun müəllim kadrların yoxluğu və bu problemin həlli istiqamətində aparılan müzakirələrdə müəyyən əhəmiyyət daşımışdır. Seyid Əzim həmin müzakirələrə öz münasibətini belə ifadə etmişdir:

*...Necə kim, ol "Vəkili-naməlum"*
*Eyləmişdi bu nüktəni mərqum.*
*Əvvəla bizdə yox o məktəblər*
*Ki, verə kəsbi-elmi xəlqə səmər.*
*Nə o gunə kitablar əlan*
*Ki, ola lisanımızda bəyan.*
*Bizə hasil nə şey olur yoxdan*
*Ki, itibdir kitabımız çoxdan...* [Şirvani, 2005:123].

**Nəticə/Conclusion**

Yekun olaraq, birincisi, S.Ə.Şirvaninin "Əkinçi" qəzetində dərc etdirdiyi mövhumat və səhalət əleyhinə maarifçi şeirləri qəzetin fəaliyyətinə yeni bir ab-hava gətirmiş və oxucu istək, arzularına cavab verdiyindən böyük marağa səbəb olmuşdu. Pedaqoji fəaliyyətlə bağlı tərtib etdiyi dərsliklərin "Əkinçi"də təbliği məsələri cəmiyyətdə maarifçiliyin inkişafına müsbət təsir göstərmiş, savadsızlığın aradan qaldırılmasına öz töhfəsini vermişdi.

İkincisi, görkəmli şair "Əkinçi" qəzeti ilə yanaşı, sonralar "Ziya" (Ziyayi-Qafqaziyyə) və "Kəşkül" kimi mətbu orqanların aparıcı yazarlarından biri olmuş, mətbuatın cəmiyyət qarşısındakı rolu və əhəmiyyətini öz həmkarlaina, eləcə də oxucilara çatdırmaga çalışmışdır. Qeyd edək ki, milli mətbuatın yaranması və inkişafı Seyid Əzimin də dünyagörüşünə mütərəqqi təsir göstərmiş və ciddi dəyişikliklər yaratmışdır.

Üçüncüsü, S.Ə.Şirvani sonrakı dövrlərdə bədii yaradıcılıqla yanaşı, elmi-pedaqoji fəaliyyətlə də məşğul olmuş, Şamaxıda yeni üsul üzrə məktəb açmışdı. Dini təhsillə yanaşı, dünyəvi təhsilin də tədris olunduğu bu məktəbdə Mirzə Ələkbər Sabir və Sultan Məcid Qənizadə kimi görkəmli şəxslər oxuyub, təhsil almış və yeni biliklərə yiyələnmişdilər.

## ƏDƏBİYYAT/REFERENCES

1. Bayramoğlu, A. (1997). Azərbaycan ictimai-bədii fikrinin inkişafında "Əkinçi" qəzetinin rolu // "Azərbaycan dili və ədəbiyyatı tədrisi", № 2. – Bakı, −116 s.

2. Bayramoğlu, A. (2015). Seyid Əzim Şirvani və "Əkinçi" qəzeti // "Azərbaycan", − 17 iyul. − №153.

3. Mirəhmədov, Ə. (1979). Birinci Azərbaycan qəzeti "Əkinci" (1875-1877). Tam mətni. – Bakı: "Elm" nəşriyyatı. − 238 s.

4. Şirvani, S.Ə. (1877). Qəzet nədir? // "Əkinçi" qəzeti, − №18.

5. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri. Üç cilddə, II cild. – Bakı: "Avrasiya Press". − 384 s.

6. Şirvani, S.Ə. (1879). Qəzet bir hüdhüdi-ziba, qəzetxanlar Süleymandır // "Ziya" qəzeti, − № 6.

**Məqalə tarixçəsi**
*Daxil olub* *22.09.2025*
*Qədul edilib* *02.10.2025*
*Nəşrə tövsiyə edib* *Razim Məmmədov*
*filologiya üzrə fəlsəfə* doktoru, dosent